**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UOT 373.2

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ VALİDEYNLƏRİN MAARİFLƏNDİRİLMƏSİ YOLLARI

**Sahib Hümmət oğlu Əliyev**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Mingəçevir Dövlət Universiteti*

**Sevinc Raqub qızı Səmədova**
*Mingəçevir Dövlət Universiteti*

**Xülasə**
*Məktəbəqədər müəssisələrdə valideynlərin maarifləndirilməsi üçün müxtəlif forma və üsullardan istifadə olunur. Onlar həm bu sahədə özünü doğrultmuş olan, həm də yeni, qeyri-ənənəvi olanlardır. Söhbət və məsləhətlər, ailələri ziyarət, valideynlərin konfransı, əyani təbliğat, valideyn iclasları, anketlər, açıq qapı günləri, dəyirmi masalar, işgüzar oyunların təşkili və s. bunlara bariz nümunədir. Bu metod və formalara daha ətraflı nəzər salsaq görərik ki, valideyn onlardan istifadə edərək öz övladının təkcə təhsillə bağlı olan məsələlərini yox, həmçinin mənəvi keyfiyyətlərini də formalaşdıra bilər.*
***Açar sözlər***: *məktəbəqədər, valideynlər, maariflənmə, üsul, forma, təbliğ*

## Giriş

Respublika təhsil sisteminin strukturuna nəzər salsaq, görərik ki, təhsil sistemi müxtəlif pilləli ardıcıl təhsil proqramlarını həyata keçirən təhsil müəssisələri şəbəkəsindən, təhsili idarəetmə orqanlarından, təlim-tərbiyə prosesi ilə məşğul olan digər müəssisə və təşkilatlardan ibarətdir [1]. Bu struktur bir neşə təhsil müəssisələri tiplərini özündə cəmləşdirir ki, bunlardan biri də məktəbəqədər təhsil müəssisələridir. Məktəbəqədər təhsil müəssisələrinin tarixi XIX əsrdə Almaniyada Fridrix Frebel 3-7 yaşlarında uşaqların idraki, fiziki və sosial baxımdan inkişafını təmin edən oyunlardan ibarət kurikulum tərtib etdiyi dövrdən başlamışdır. Bu kurikulumun tətbiqində əsas məqsəd uşaqları məktəbə hazırlamaqla yanaşı, həmçinin onların təlim-tərbiyəsində böyük rolu olan valideynlərin maarifləndirilməsi işi də ön planda olmuşdur [3]. Ümumiyyətlə, uşaq bağçasının ailə ilə iş sistemi aydın məqsədlər üzərində qurulmalıdır. Bu sahədə iş aparılarkən ilk növbədə əvvəlki müvəffəqiyyətlər və nöqsanların yaranma səbəbləri öyrənilməli, onlar eksperiment, yəni təhlil yolu ilə gələcək iş üçün aydın olan plan hazırlanmasına yönəldilməlidir. Məktəbəqədər təhsilin prinsipləri içərisində də hər bir uşağın hərtərəfli inkişafında tələbat və maraqlarının, qabiliyyət və istedadının reallaşdırması üçün bərabər şəraitin yaradılması, valideynlərin bu məsələyə birbaşa məsuliyyətli yanaşaraq daim nəzarət altında saxlaması öz əksini tapmışdır [2]. Tərbiyəçilərin ailə ilə keçirdiyi tədbirlər həm valideyn qarşısında yeni vəzifələr qoyur, həm də uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq uşaq bağşası ilə ailənin əlaqəsini möhkəmləndirir.tərbiyəçilər ailə ilə müntəzəm əlaqə saxlayaraq uşaqların həyatını məktəbə gedənə kimi nəzarət altına almış olurlar [6, s.358].

Əslən azərbaycanlı, Şərq aləmində böyük filosof və alim kimi məşhur olan Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində “uşaq” anlayışı, onun təlim-tərbiyəsi, şəxsiyyət kimi formalaşması üçün aparılmalı işləri üç nisbi mərhələyə ayırmış: “Uşaq doğulanda ilk növbədə ona yaxşı bir ad qoymaq lazımdır. Daha sonra onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır. Elm dalınca getsə, əvvəlcə əxlaq dərsi verməк, sonra isə hikmət nəzəriyyəsinə keçmək lazımdır” demişdir.

Hər bir övlad ailənin güzgüsüdür deyirlər. Valideyn övladı necə yetişdirərsə, o cür də bar verəcəkdir. Uşaqların tərbiyəsi ilə yanaşı, həm də onların elmə, hər hansı bir peşəyə yiyələnməsini, habelə kommunikasiya (ünsiyyət) bacarıqlarının inkişafını da təmin etmək valideynin əsas vəzifəsi hesab olunur. Elmi-pedaqoji araşdırmalardan belə məlum olub ki, insan həyatı boyu öyrəndiyi bilik və bacarıqların böyük bir hissəsini altı yaşına qədər mənimsəyir. Məhz bu dövrdə uşağın həm fiziki, həm də idraki inkişafının təməli qoyulur. Bu təməlin nə qədər möhkəm və düşünülmüş olması sırf valideyndən asılı məsələ hesab olunur ki, o da şəxsiyyətin gələcək inkişafını təmin edir və onun həyat fəlsəfəsini, cəmiyyətə baxışlarını müəyyənləşdirir.

Valideynlərin maarifləndirilməsi üçün müxtəlif forma və üsullardan istifadə olunur. Onlar həm bu sahədə özünü doğrultmuş olan, həm də yeni, qeyri-ənənəvi olanlardır. Söhbət və məsləhətlər, ailələri ziyarət, valideynlərin konfransı, əyani təbliğat, valideyn iclasları, anketlər, açıq qapı günləri, dəyirmi masalar, işgüzar oyunların təşkili və s. istifadə olunur. Bütün fəaliyyət növləri sahəsində uşaq bağçası öz imkanları daxilində əhali arasında təbliğat xarakterli iş aparmalıdır. Qeyd olunan bütün metod və formalara daha ətraflı nəzər salsaq görərik ki, valideyn onlardan istifadə edərək, öz övladında mənəvi keyfiyyətləri formalaşdıra bilər.

**Ailələrə ziyarət**

Valideynlərə göstərilən pedaqoji kömək hər bir ailənin, uşağın mükəmməl və hərtərəfli öyrənilməsinə əsaslanmalıdır. Valideynlərlə iş yalnız aşağıdakı məsələlərlə birlikdə, ümumi şəkildə reallaşdırılarsa, konkret, təsirli xarakter daşıyar, valideyn və tərbiyəçilərin qarşılıqlı anlaşma və maraqlarına təsir göstərə bilər. Buraya daxildir:

1. Ailənin maddi şəraiti, onun psixoloji iqlimi, uşağın ailədə davranış xüsusiyyətləri ilə tanışlıq;
2. Valideynlərin pedaqoji mədəniyyət səviyyəsinin təyin edilməsi;
3. Valideynlərin qarşılaşdığı çətinliklərin müəyyən edilməsi;
4. Ailə tərbiyəsinin müsbət cəhətlərinin geniş yayılması məqsədi ilə öyrənilməsi.

Hər bir ailə haqqında əldə olunan məlumatın dəqiq təhlili əsasında valideynlərə kollektiv, fərqli və fərdi pedaqoji təsirin həyata keçirilməsi mümkündür. Bu məsələləri valideynlərlə müxtəlif iş üsullarından istifadə edərək həll etmək olur, lakin bunun üçün ən təsirli forma ailələri ziyarət etməkdir. Peşəkar pedaqoq ailəni ziyarət edərkən ilk dəfədən uşağın yaşadığı və inkişaf etdiyi mühitin psixoloji iqlimini, ailə üzvləri arasında olan münasibətləri görə bilir. Sonrakı görüşlərdə tərbiyəçi əvvəlcədən ailənin tipi, uşağın inkişafı və tərbiyəsi ilə bağlı xüsusiyyətləri nəzərə alaraq, konkret məqsəd və vəzifələri müəyyən etməlidir. Məsələn, kiçik məktəbəqədər yaşlı uşağın ailəsi ilə görüşərkən “Erkən yaşlı uşağın gün rejiminə riayət edilməsinin əhəmiyyəti”, “Uşağın mədəni-gigiyenik bacarıqlarının və müstəqilliyinin formalaşması üçün pedaqoji şərait” və s. kimi mövzularda söhbətlər aparmaq olar.

Böyük məktəbəqədər yaşlı uşağın ailəsində görüşlərin məqsədi və mövzular bir qədər fərqli olur. Məsələn: “Əmək tapşırıqları və uşağın ailədə vəzifələri”, “Gələcək məktəblidə ilkin təlim bacarıqlarının formalaşdırılması”, “Kitaba marağın tərbiyə edilməsi”, “Oyuncaq seçimi” və s. Aztəminatlı ailə ilə görüşərkən, onların çətinliklərini müəyyənləşdirmək, bu ailəyə nə kimi köməklik göstərə bilməsini fikirləşmək olar. Ailə ilə görüşməyin dəqiq müəyyənləşdirilmiş məqsədi pedaqoqun valideynlərlə görüşə hazırlığını, onun məqsədyönlülüyünü təmin edir. Evlərə gedişin daha effektli olması üçün valideynləri təkcə onun vaxtı ilə deyil, həm də əsas məqsədi haqqında məlumatlandırmaq lazımdır. Təcrübə göstərir ki, yalnız belə olan halda söhbət və müşahidə daha səmərəli olur. Qeyd etmək lazımdır ki, valideynlərlə ev şəraitində söhbət səmimi olur, uşağın inkişafına təsir göstərən ailə üzvlərinin fikirləri ilə tanış olmaq imkanı yaranır. Ailənin bütün üzvləri ilə müsahibə və müşahidə əsasında tərbiyəçi təlim-tərbiyə ilə bağlı bütün məsələləri müəyyən edə bilər. Eləcə də tərbiyəçi evdə olan görüşlər zamanı ailə tərbiyəsinin müsbət təcrübəsindən nəyi öyrənə biləcəyini aydınlaşdırır. Valideynlərlə belə bir təcrübəni bölüşməyi və ya səyyar qovluq üçün kiçik məqalə yazmağı da valideyn iclasında təklif etmək mümkündür.

**Əyani təbliğat**

Bu, pedaqoji təbliğatı həyata keçirən zaman müxtəlif növ əyanilikdən istifadə edilməsi üsuludur. Bu, valideynləri həm stendlər, tematik sərgilər və s. materiallar vasitəsi ilə təlim-tərbiyə məsələləri ilə tanış etmək üçün, həm də onlara təlim-tərbiyə prosesini, qabaqcıl iş təcrübəsini, valideynlərə lazımi pedaqoji məlumatı sadə və inandırıcı şəkildə çatdırmaq üçün imkan yaradır. İki bölmə üzrə məlumatları əhatə edən "Valideynlər, sizin üçün" tipli daimi qrup şəkilli stendlər hazırlamaq olar. Bunlara qrupun gündəlik həyatı, müxtəlif elanlar, rejim, menyu və uşaqların uşaq bağçasında və ailədə tərbiyəsi ilə bağlı cari iş və s. aiddir.

İlin əvvəlində, adətən, pedaqoji şurada illik iş planı müzakirə olunur. Sonra pedaqoqlar müəyyən bölmə üzrə bir rübə dair təlim-tərbiyənin məqsədləri haqqında məlumat verirlər. Məşğələlərin proqram məzmununu elan edirlər, uşaq bağçasında həyata keçirilən işin ailədə necə davam etdirilməsi barədə valideynlərə məsləhətlər verirlər. Məsələn, "Uşaqlarınız bu gün nə işlə məşğul olublar" kimi ümumi başlığa təqvim planlarından çıxarışlar, proqramın yerinə yetirilməsi haqda çıxarışlar yerləşdirilə bilər. Valideynlər böyük məmnuniyyətlə uşaqların xüsusi lövhədə nümayiş etdirilən rəsm, yapma, applikasiya və s. kimi işlərini seyr edirlər.

"Məsləhət və tövsiyələr" bölməsində isə tərbiyəçinin müxtəlif məsələlərə dair tövsiyələri, valideyn komitəsi üzvlərinin ailələrə getmələri, növbətçilik haqqında hesabatlar yerləşdirilir [4, s.127]. Lövhədəki məlumatların tematikası həm uşaqların yaş xüsusiyyətlərindən, həm də ailələrin xüsusiyyətlərindən asılı olmalıdır. Məktəbəhazırlıq qrupunda stend materiallarını bir çox mövzulara həsr etmək olar: "Məktəbəhazırlıq qrupunda uşaqlar məktəbə getmək üçün nəyi öyrənməlidirlər", "Uşaqların ailədə və uşaq bağçasında məktəbə hazırlığı" və s. Həmçinin əlil uşaqlı ailələr üçün defektoloqun, pedaqoqun, psixoloqun praktik tövsiyələri olan stend tərtib etmək olar. Eləcə də orada valideynlərin lazımı kömək və dəstək ala biləcəkləri təşkilatların siyahısını da yerləşdirmək mümkündür. Ümumi tematik stend və sərgilərin tərtibatının da böyük əhəmiyyəti var. Adətən, onlar "Salam, yeni il", "Novruz bayramı". "Tezliklə məktəbə" və s. kimi bayramlara hazırlaşmaq, həm də, "Məhəbbət, dostluq, qarşılıqlı hörmət-uşaqların normal inkişafının təməlidir", "Mən özüm", "Dünya bizim ətrafımızda" kimi mövzulara həsr olunur. Məsələn, "Yaradıcılıq sevincləri" adlı sərgidə uşaqların və valideynlərin təbiət materiallarından hazırlanan əl işlərini, rəsmlərini, applikasiyalarını və s., "Valideynlər uşaq bağçasına" adlı sərgidə valideynlərin gəlinciklər üçün hazırladıqları müxtəlif əl işlərini və s. yerləşdirmək olar. "Biz çalışırıq, zəhmət çəkirik", "Gözəllik və uşaqlar", "Təbiət və biz" və s. kimi tərbiyənin müxtəlif aspektlərini əhatə edən mövzulara dair sərgilər tərtib etmək faydalıdır. Tematikadan asılı olaraq, sərgilərin tərtibatı müxtəlif ola bilər. "Əlvida, bağça, salam, məktəb!" adlı sərgidə birinci sinif şagirdinə lazım olan qələm, karandaş, qələmdan, dəftərlər, çanta və s. kimi əşyaları, ailədə məktəbliyə məxsus müxtəlif guşələrin şəkillərini, məktəbli uşağın gün rejiminə dair məsləhətlər və s. yerləşdirmək olar.

Valideynləri ailədə fiziki tərbiyə ilə tanış edərkən şəkillərdən, fiziki məşqlərin faydası haqqında materialdan, məktəbəqədər yaşlı uşağın mənimsəməli olduğu əsas hərəkətlərin siyahısından istifadə etmək olar.Valideynlər uşaqlarının uşaq bağçasında təlim və tərbiyəsinə böyük maraq göstərirlər. Valideynləri bununla açıq qapı günləri vasitəsi ilə tanış etmək olar. Metodistlərin, tərbiyəçilərin və psixoloqların böyük əməyini bu işin keçirilməsinə yönəltmək vacibdir. Bu günə müəyyən olunmuş tarixdən xeyli əvvəl rəngarəng elan hazırlamaq, uşaqlarla təlim-tərbiyə işlərinin məzmunu və təşkilati məqamları haqqında fikirləşməyə başlamaq lazımdır. Məşğələlərə baxış keçirməzdən əvvəl valideynləri məşğələ, onun məqsədi və keçirilmə zərurəti haqqında məlumatlandırmaq labüddür.

**Açıq qapı günləri**

Bu cür tədbirlərin təşkili valideynlər üçün çox faydalıdır. Onlar uşaqlarını ailədən fərqli şəraitdə müşahidə etmək, uşaqlarının davranış və bacarıqlarını digər uşaqların davranış və bacanqları ilə müqayisə etmək, tərbiyəçidən təlim və tərbiyənin üsullannı mənimsəmək imkanı əldə edirlər [5, s.102]. Açıq qapı günləri ilə bərabər valideyn və valideyn komitəsi üzvlərinin növbətçiliyi də keçirilir. Valideynlər uşaqları müşahidə etmək üçün gəzinti zamanı, bayram günləri və əyləncə axşamlarında geniş imkanlar əldə edirlər.

Pedaqoji təbliğatın bu forması çox təsirlidir. Bu forma hələ də bəzi valideynlər arasında rast gəlinən uşaq bağçasının uşaqların həyatında və tərbiyəsində olan rolu barəsində səthi fikirlərin aradan qaldırılmasına kömək edir. Valideynlərlə iş zamanı pedaqoji təbliğatın səyyah qovluq kimi dinamik formasından da istifadə etmək mümkündür. Onlar eləcə də ailə ilə işə fərdi yanaşma zamanı da kömək edirlər. Tərbiyəçilərin material və illüstrasiyalar hazırlaması üçün illik planda əvvəlcədən qovluqların mövzularını müəyyənləşdirmək lazımdır. Qovluqların mövzusu ailədə əmək tərbiyəsinə, estetik tərbiyəyə aid olan materiallardan natamam ailədə uşaqların tərbiyəsini əhatə edən materiallara kimi müxtəlif ola bilər. Natamam ailələr üçün "Uşağı mükəmməl tərbiyələndirmək" mövzusunda qovluq tərtib etmək olar:

1. Psixoloq tövsiyələri;
2. Valideynlər üçün məsləhətlər;
3. Mövzuya aid məqalələr;
4. Böhranlı vəziyyətlərdə harada dəstək tapmaq (pedaqoqun tövsiyələri) olar. Məsələn, "”Oyun, uşaqların tərbiyəsində bir vasitə kimi" qovluğunda hansı materialları yerləşdirmək olar?" sualına bu şəkildə cavab vermək mümkündür:

- məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsində oyunun rolu haqqında klassiklərin fikirləri;
- bu və ya digər yaşlı uşaqlar üçün lazım olan oyuncaqların siyahısı və şəkilləri;

Evdə oyun guşəsini təşkil etmək üçün müxtəlif yaşlarda oyun fəaliyyəti haqqında qısa xasiyyət-namə, onun mənəvi tərbiyədə rolu, rollu-süjetli oyunların nümunələrini hazırlamaq məqsədəmüvafiqdir. Ailədə uşaq oyununu idarəetmək haqqında tövsiyələr və həmçinin də tövsiyə olunan ədəbiyyat siyahısı ilə tanış olub, ondan istifadə edilməsi işin daha keyfiyyətli olması üçün lazımi yol hesab oluna bilər.

"Fiziki tərbiyə üzrə uşaq bağçası və ailənin birgə işi" adlı mövzuya aid səyyar qovluqda aşağıdakıları toplamaq olar:

1) məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin əhəmiyyəti haqqında mətnli material;
2) valideynlər üçün müəyyən mövzuya dair məsləhət;
3) məktəbəqədər yaşlı uşaqlar üçün tövsiyə olunan hərəkətlər;
4) bədən tərbiyəsi məşğələlərinin plan-konspekti;
5) ailədə, fiziki fəaliyyətin təşkili barədə məsləhətlər, tövsiyələr
6) uşaq bağçasında fiziki mədəniyyət məşğələlərini əks etdirən fotomateriallar;
7) qəzet və jurnal materialları.

Səyyar qovluqlar haqqında valideyn iclaslarında danışmaq, onlarla tanış olmağı tövsiyə etmək, tanış olmaq üçün evə vermək lazımdır. Valideynlər qovluqları qaytaran zaman, tərbiyəçi və ya müdir oxunanlar haqqında söhbət aparmalı, sual və təklifləri dinləməlidirlər. Əyani təbliğat kimi iş formasına ciddi yanaşmaq, onun valideynlərin pedaqoji maarifləndirilməsindəki rolunu, qovluqların məzmununu, bədii tərtibatını diqqətlə fikirləşərək, mətnli və əyani materialın birliyinə səy göstərərək düzgün dərk etmək lazımdır. Əyani təbliğatın bütün formalarının əlaqəli təsiri valideynlərin pedaqoji biliklərinin artmasına, ailə tərbiyəsinin düzgün olmayan metod və üsullarına yenidən baxmağa sövq edir.

**Valideyn iclasları**

Adətən, valideyn iclasları ənənəvi keçirilir. Tərbiyəçinin hər hansı bir mövzu ilə bağlı çıxışı və təşkilati məsələlərin müzakirəsi, bir qayda olaraq, bu tip iclaslarda valideynlər heç bir fəallıq nümayiş etmirlər. Passivlik isə ya laqeydliyin göstəricisidir, ya da onu göstərir ki, iclasın keçirilmə forması valideynlər tərəfindən fikir söyləməyə heç bir həvəs yaratmamışdır. Bu o deməkdir ki, təcili olaraq valideyn iclaslarının keçirilmə formasını yenidən nəzərdən keçirmək zəruridir. Lakin bir çox məktəbəqədər tədris müəssisələri novator formalardan istifadə edirlər. Tədbirin keçirilməsini təkmilləşdirmək üçün valideyn iclaslarının hazırlanma və keçirilmə məsələlərinin, valideynlərin fəallığını artırma yollarının müzakirəsinə dair, eləcə də bu məsələlərə dair vəsaitlərdə verilən tövsiyələrin

müzakirəsini keçirmək, iclasın hazırlanma və keçirilməsinə aid ümumi tələbləri müəyyənləşdirmək üçün seminar-praktikumlar təşkil etmək lazımdır. Digər qrupların tərbiyəçilərinin də iştirak etmələri üçün bəzi valideyn iclaslarını açıq keçirmək olar. Metodist və sosial pedaqoqla birgə iclasların hazırlanmasına dair tədbirlər planı müzakirə olunur, valideynlər üçün sorğu vərəqləri, yaddaş dəftərçəsi tərtib olunur. İclasın keçirilmə tarixini əvvəlcədən, yəni bir iki həftə əvvəl elan etmək lazımdir.

Sorğu vərəqələri müxtəlif ola bilər, təqribən bu məzmunda:

Hörmətli analar və atalar! Xahiş edirik, bağçamızda keçirilən qrup valideyn iclasının hazırlanmasında fəal iştirak edəsiniz. Valideyn iclasının mövzusunu qeyd etmək isə vacibdir.

Eləcə də, iclasda çıxış edənlər də əvvəlcədən müəyyənləşdirilir. Metodist və tərbiyəçilər aşağıdakı rubrikalar üzrə məlumat lövhəsində material yerləşdirirlər:

1) "Bizim nailiyyətlər" – tərbiyənin hər hansı bir növünə dair proqramın həyata keçirilməsi (iclasın mövzusundan asılı olaraq), uşaqların bilik səviyyəsi.

2) "Bizim məqsədlərimiz" – valideynlərlə birgə həll ediləcək məsələlər.

3) "Məsləhətlər" - iclasın mövzusu, onun uşaqlann tərbiyəsində əhəmiyyətinin qısa izahı.

4) "Tədbirin keçirilməsi mövzusunda" ədəbiyyat" – qısa annotasiya ilə ədəbiyyatın siyahısı.

5) "Uşaq bədii ədəbiyyatı" – tərbiyə fəaliyyətinin hər hansı bir aspektində (əmək, estetik, fiziki və s.) istifadə etmək üçün ədəbiyyatın annotasiya və tövsiyələrlə siyahısı.

6) "Bizim problemlər" – iclasın mövzusuna dair olmalıdır.

Belə bir məlumat lövhəsindən əlavə, valideynlər üçün ədəbiyyat sərgisi də tərtib edilə bilər. Valideynlərin fəal iclası məşğələ-söhbətlərin nümayişini, sonra müzakirələri, iclasın mövzusuna dair yaddaş dəftərçəsinin paylanmasını nəzərdə tutur. Bu sxemlə valideyn iclaslarını təşkil edərək qısa müddət ərzində nəticə əldə etmək olar: valideynlər uşaq bağçasının həyatında, onun işində daha maraqlı olurlar. Belə forma valideynlərə uşaqlarını bağça şəraiti çərçivəsində müşahidə edərək, sanki yenidən tanımağa, sərbəst söhbət zamanı pedaqoji problemlərin müzakirə olunmasına, uşaqların tərbiyəsinə məsuliyyət hissinin artırılmasına, valideyn kollektivinin birləşməsinə imkan verir, uşaq bağçası və ailə arasında olan münasibətlərə müsbət təsir göstərir.

**İşgüzar oyun**

Bu, yaradıcılıq üçün geniş meydandır. O, oyun iştirakçılarını real şəraitə maksimum yaxınlaşdırır, pedaqoji cəhətdən tez və düzgün qərarları qəbuletmə vərdişlərini, vaxtında nöqsanları görmə və düzəltmə bacarığını formalaşdırır. İşgüzar oyunların dar istiqamətlənmiş sxemi mövcud deyil. Hər şey rəhbərin istedadından və bacarığından asılıdır.Oyunun təqribi strukturu isə belədir:

I. Hazırlıq mərhələsi – buraya oyunun müəyyən məqsəd və vəzifələri, onun gedişini nizamlayan təşkilati qaydalar, iştirak edən şəxslərin (şəxsin) rollara müvafiq olaraq, seçimi, lazım olan əyani vəsaitin və avadanlığın hazırlanması daxildir.

II. Oyunun bütün iştirakçıları tərəfindən zəruri qayda və hərəkətlərin yerinə yetirilməsindən ibarət olan – oyunun gedişi [4, s.132].

III. Nəticələrin təhlilində əks olunan – oyunun nəticəsi.

İşgüzar oyunların məqsədi münaqişəli vəziyyətlərin qarşısını almaq bacarığının, müəyyən vərdişlərin yaradılması və möhkəmləndirilməsidir. İşgüzar oyunlarda rolları müxtəlif cür paylaşdırmaq olar. Burada tərbiyəçilər, müdirlər, psixoloqlar, valideyn komitəsinin üzvləri və s. iştirak edə bilərlər. İşgüzar oyunda xüsusi müşahidə kartoçkası vasitəsi ilə öz obyektini müşahidə edən referent (onlar bir neçə nəfər belə ola bilərlər) iştirak edə bilər. İşgüzar oyunların mövzusu müxtəlif münaqişəli vəziyyətlərdən də ibarət ola bilər.

Sual cavab axşamları çox vaxt müxtəlif məsələlərə dair diskussiya xarakteri daşıyan konsentrə olunmuş, yəni cəmlənmiş pedaqoji məlumat kimi təqdim edilir Sual cavab axşamlarının rolu valideynlərin pedaqoji biliklərə yiyələnməsində nəinki cavablarda, eləcə də, bu axşamların keçirilmə formasındadır. Həmçinin valideyn və pedaqoqların sərbəst, bərabər hüquqlu ünsiyyəti həyata keçirirməlidir. Bu axşamın keçirilməsi haqda valideynlər bir aydan gec olmadan xəbərdar olurlar. Bu müddət ərzində metodistlər, tərbiyəçilər hazırlaşmalıdırlar: suallar toplamalı, onları qruplaşdırmalı,

cavabların hazırlanması üçün onları pedaqoji kollektivdə bölüşdürməlidirlər. Sual cavab axşamlarında pedaqoji kollektivin əksər üzvlərinin, eləcə də sualların məzmunundan asılı olaraq, mütəxəssislərin – tibb işçilərinin, hüquqşünasların, pedaqoqların, psixoloqların və s. iştirakı arzu olunandır.

**"Dəyirmi masa" görüşləri**

Valideynlərdən sualların daxil olmasını necə təşkil etmək olar? Adətən, metodistlər və tərbiyəçilər bunun üçün valideyn iclasları, anketlər, müxtəlif sorğu vərəqələrindən istifadə edirlər. Valideyn iclaslarında sual cavab axşamlarının keçirilmə tarixini elan edirlər, suallar fikirləşmək və onları vərəqdə qeyd etmək üçün imkan yaradırlar, həm də valideynlər sualları evdə fikirləşmək və sonra onları tərbiyəçiyə təqdim etmək imkanı əldə edirlər. "Dəyirmi masa" arxasında keçirilən görüşlər nəinki valideynlərin, həm də tərbiyəçilərin dünyagörüşünü genişləndirir. Tədbirin tərtibatı böyük əhəmiyyət kəsb edir. Düşüncə və səmimiyyət üçün zəmin yaratmaq məqsədi ilə zal xüsusi bəzənməli, mebel müvafiq düzülməli, musiqi tərtibatına diqqət yetirilməlidir.

Görüşün mövzuları müxtəlif ola bilər. Söhbəti fəal valideynlər başlamalı, sonra isə müdir, həkim, defektoloq, tərbiyəçilər və digər valideynlər də bura qoşulmalıdırlar Görüş iştirakçılarını daha da fəallaşdırmaq üçün ailə həyatından müxtəlif vəziyyətlər, müxtəlif tip ailələrdə uşaqların tərbiyəsi zamanı baş verən problemləri müzakirə üçün təklif etmək olar. Bu iş formasında maraqlı cəhət odur ki, heç bir valideyn praktik olaraq, kənarda qalmır, demək olar ki, hər biri maraqlı müşahidələrini bölüşərək fəal iştirak edir, faydalı məsləhətlər verir. Görüşü müdir və ya metodist ümumiləşdirib yekunlaşdırır.

**Nəticə**

Ümumiyyətlə, ailə tərbiyəsini düzgün təşkil etmək üçün valideyn minimum pedaqoji biliyə və bacarığa malik olmalıdır. Bir çox valideynlərin bu işdə səhvə yol verməsi onların bu sahədə biliklərinin zəif olmasından irəli gəlir. Bunun üçün ilk növbədə valideynləri pedaqoji cəhətdən savadlandırmaq, onlar arasında mümkün təbliğat işi aparmaq vəzifəsi uşaq bağçası üçün başlıca faktora çevrilməlidir [6, s.358]. Bu işin uğurla həyata keçirilməsi gələcək nəsillərimizin təhsil nailiyyətlərinə müsbət təsir göstərəcək, cəmiyyətin bütün təbəqələrini əhatə edəcək və nəticə etibarilə ölkəmizin bütün sahələrdə inkişafı üçün böyük töhfələr verəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999.
2. Məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. "Azərbaycan müəllimi" qəz., 2007, 13 aprel
3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu // "Kurikulum" jurnalı, 2009, №4
4. Cəfərova L.,Qafarova İ. Məktəbəqədər təhsilin müasir problemləri. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015,136 s.
5. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004, 432 s.
6. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2011, 368 s.

**Aliyev S. H.**
*Doctor of Philosophy in Pedagogy*
*Mingachevir State University*

**Samadova S. R.**
*Mingachevir State University*

**Ways of educating parents in preschool institutions**

**Abstract**

*Different forms and methods are used to enlighten parents in preschool institutions. They are both those, which have proven themselves in this field and those, which are new and unconventional. Conversations and consultations, visits of families, parent's conferences, face-to-face (visual) propaganda, parent's meetings,*

*questionnaires, open days, round tables, organization of business games, etc. are prime examples of them. A closer look at these methods and forms shows that parents can use them to solve not only issues related to the education of a child, but also to form his moral qualities.*
***Keywords**: preschool, parents, enlightenment, method, form, promotion*

**Алиев С. Г.**
*доктор философии по педагогике*
*Мингячевирский государственный университет*

**Самедова С. Р.**
*Мингячевирский государственный университет*

**Способы просвещения родителей в дошкольных учреждениях**

**Резюме**

*Для просвещения родителей в дошкольных учреждениях используются разные формы и методы. К ним относятся как те, что уже зарекомендовали себя в этой области, так и новые, и нетрадиционные. Беседы и консультации, посещения семей, родительские конференции, наглядная пропаганда, родительские собрания, анкеты, дни открытых дверей, круглые столы, организация деловых игр и т.д. являются ярким примером этого. Если приглядеться более пристально на эти методы и формы, то можем увидеть, что родитель, используя их, может решить не только вопросы, связанные с образованием ребенка, но и формировать его моральные качества.*
***Ключевые слова**: дошкольное, родители, просвещение, метод, форма, продвижение*